

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 dekabr 2025-ci il №90 (2999) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin Anım Günü”.

## Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin anım günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə səhifələrində Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Dahi Heydər Əliyev. Xatirimizdədir, sevgi ilə anırıq”.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.***

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

* * *

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrildi.

Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.

(Ardı 2-ci səhifədə)

## Müasir Azərbaycan ordusunun banisi - Heydər Əliyev

Azərbaycanda, eləcə də regionda və dünyada XX əsrin sonlarından etibarən baş verən hadisələr göstərdi ki, müstəqilliyin qorunması və dövlətin beynəlxalq aləmdə nüfuz qazanması heç də təsadüfi proses deyil. Bu, məqsədyönlü, ardıcıl və çoxşaxəli fəaliyyətin nəticəsidir. Mübarizə deyərkən yalnız hərbi qarşıdurma ağıla gəlməməlidir. Dövlətin suverenliyini və azadlığını təmin etmək üçün düzgün siyasi strategiyanın hazırlanması, bu strategiyanın real şəraitə uyğun şəkildə həyata keçirilməsi də bu mübarizənin əsas amillərindəndir. Həmçinin milli maraqları önə çəkən iqtisadi inkişafın təmin edilməsi, cəmiyyətdə özünəinamın gücləndirilməsi, o cümlədən, ölkənin daxili siyasi, iqtisadi, ictimai və hərbi sabitliyin möhkəmləndirilməsi də vacib şərtlərdən biri hesab olunur. Bunlarla yanaşı, əsaslandırılmış xarici siyasətin yürüdülməsi də böyük əhəmiyyət kəsb edir. Sadalanan bütün bu addımların kompleks şəkildə icrası və ardıcıllıqla həyata keçirilməsi də mübarizənin vacib formalarından biridir.

Bu kimi taleyüklü məsələlərin uğurla reallaşdırılması isə mövcud tarixi şəraitdən, əlverişli mühitin olub-olmamasından, regional və qlobal proseslərdən, həmçinin obyektiv və subyektiv amillərdən asılı olaraq xüsusi diqqət, peşəkarlıq və məsuliyyət tələb edir. Dünya təcrübəsi, eləcə də tarixi faktlar bir daha onu təsdiq edir ki, ölkələr məhz həmin mürəkkəb vəzifələrin öhdəsindən daha dəqiq və məqsədyönlü şəkildə gələndə inkişaf və sabitlik əldə edirlər. Bu prosesdə dövlət rəhbərliyinin, qətiyyətli liderin rolu xüsusilə böyükdür və tarix göstərir ki, görkəmli siyasi liderlər öz xalqlarının taleyində həlledici rol oynaya bilirlər.

Məhz belə liderlər sırasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də adı çəkilir. O, xalqının ən çətin dönəmlərində məsuliyyəti öz üzərinə götürərək, dövlətçilik ənənələrinin bərpası və qorunması istiqamətində misilsiz xidmətlər göstərib. Heydər Əliyevin həm sovet dövründəki fəaliyyəti, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etməsi, onun ölkənin inkişafında oynadığı əvəzsiz rolu bunu bir daha təsdiq edir. Sovet dövründə Azərbaycanı yüksək inkişaf səviyyəsinə çatdıran Ulu Öndər Heydər Əliyev XX əsrin sonlarında müstəqil Azərbaycan dövlətinin qurulmasının və möhkəmləndirilməsinin əsasını qoyaraq ölkəni yeni inkişaf mərhələsinə yüksəltdi.

Ulu Öndər Heydər Əliyevi digər siyasi xadimlərdən fərqləndirən xüsusiyyətləri çox idi. Ən mühüm cəhət ondan ibarət idi ki, o, ən çətin şəraitdə belə bir çoxlarının görə bilmədiyi ən uyğun və təsirli qərarları verə bilir, qarşıya qoyulan məqsədlərin yüksək səviyyədə icrasına nail olmağı bacarırdı. Bu cür keyfiyyət həm dərin nəzəri hazırlıq, həm də uzun illər ərzində formalaşmış zəngin siyasi təcrübə tələb edir. Ən sadə müşahidə belə onu göstərir ki, Əbədiyaşar Komandan Heydər Əliyev bu xüsusiyyətlərlə yanaşı, güclü siyasi instinktə, incə duyuma və uzaqgörənlik qabiliyyətinə malik idi. Onun geniş dövlət idarəçiliyi təcrübəsi analitik düşüncə tərzi ilə birləşərək onu dünya miqyasında seçilən nadir dövlət xadimləri sırasına çıxarırdı. Heydər Əliyev siyasət sənətini peşəkarlıq səviyyəsinə qaldıran şəxsiyyətlərdən biri kimi tanınırdı və bu fakt beynəlxalq siyasi xadimlər tərəfindən dəfələrlə etiraf olunmuşdur.

Müstəqil Azərbaycan dövlətinin qurulması prosesində, həmçinin hərbi təhlükəsizliyin təmin edilməsində Heydər Əliyevin gördüyü işlər onun böyük siyasətçi və təşkilatçı olduğunu bir daha nümayiş etdirir. Müstəqil Azərbaycanın rəhbəri kimi fəaliyyətə başladığı ilk günlərdən o, dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumağın, ölkənin bütün imkan və resurslarını bu məqsədlərə yönəltməyin, hərbi təhlükəsizliyi təmin edəcək siyasəti ardıcıl şəkildə həyata keçirməyin əsas şərtinin, ölkədə sabitliyin bərqərar olunması və xalqın ümummilli məqsədlər ətrafında birləşdirilməsi olduğunu ortaya qoydu. O dövrdə ölkə daxilində mövcud olan qarışıqlığın aradan qaldırılması, vətəndaş həmrəyliyinin formalaşdırılması və ictimai-siyasi tarazlığın yaradılması Dahi Lider Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri idi.

(Ardı 4-cü səhifədə)

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





(Əvvəli 1-ci səhifədə)

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir. Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara aparmaqda davam edəcək.

# Müdafiə Nazirliyinin rəhbərliyi Ulu Öndərin məzarını ziyarət edib







***Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günündə Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib.***

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi dərin hörmət və ehtiramla yad olunub.

Nazirliyin rəhbər heyəti daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzərək xatirəsinə ehtiram nümayiş etdirib.

# Azərbaycan müdafiə naziri və Özbəkistanın hərbi nümayəndə heyəti komando hərbi hissəsində olublar







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə sənayesi naziri Vüqar Mustafayev, ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudov və müdafiə naziri general-leytenant Şuhrat Xalmuxamedov dekabrın 12-də komando hərbi hissələrindən birini ziyarət ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsinə ehtiram nümayiş etdirilib.

General-polkovnik Z.Həsənov Özbəkistanın hərbi nümayəndə heyəti ilə birgə tir, əsgər yataqxanası, silah otağı, əşya anbarı, həmçinin yeməkxanaya gələrək burada şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub.

Hərbi hissənin idman zalında Müdafiə Sənayesi Nazirliyinin təqdim etdiyi simulyasiya vasitəsinə baxışdan sonra qonaqlar hərbi qulluqçuların idman hazırlığını izləyiblər.

Nümayəndələrə komandoların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətləri nümayiş etdirilib.

Qonaqlara Müdafiə Sənayesi Nazirliyinin, həmçinin hərbi sənaye şirkətlərinin istehsal etdiyi pilotsuz uçuş aparatları (PUA), silah, avtomobil və xüsusi texnika, eləcə də digər döyüş vasitələri təqdim olunub.



Daha sonra Özbəkistan nümayəndə heyətinə Azərbaycan Ordusunun istifadəsində olan silah-sursat, təchizat və döyüş texnikası təqdim edilib, onların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Ziyarət qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi və iki ölkənin müdafiə qurumları arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyıb.

# Özbəkistan nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdədir





*Dekabrın 10-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudov və müdafiə naziri general-leytenant Şuhrat Xalmuxamedovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, əklil və gül dəstələri qoyaraq xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Sonra nümayəndə heyəti Zəfər parkını ziyarət edib, Zəfər abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyində təşkil edilən rəsmi qarşılanma mərasimi zamanı fəxri qarovul dəstəsinin önündən keçiddən sonra Azərbaycan və Özbəkistan respublikalarının Dövlət himnləri səsləndirilib, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

İki ölkənin nümayəndə heyəti arasında keçirilən görüşdə general-polkovnik Z.Həsənov Azərbaycan ilə Özbəkistan arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb.

Özbəkistan nümayəndə heyətinin rəhbərləri ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın hər iki ordunun inkişafına və daha da güclənməsinə xidmət etdiyini qeyd ediblər.

Görüşdə Azərbaycan-Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq, eləcə də müdafiə sahəsində qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.



Görüşün sonunda Özbəkistan Respublikası Müdafiə Nazirliyi və Azərbaycan Respublikası Müdafiə Nazirliyi arasında 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

Ölkəmizə rəsmi səfər çərçivəsində Özbəkistan nümayəndə heyəti, həmçinin Azərbaycan Ordusunun Baş Qərargahında tabelikdəki baş idarə və idarələrin əsas fəaliyyət istiqamətləri ilə tanış olub, qonaqları maraqlandıran suallar cavablandırılıb.





# Özbəkistan nümayəndə heyətinin ölkəmizə səfəri davam edir





Özbəkistan Respublikasının hərbi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Özbəkistan nümayəndə heyəti ilə birgə Kibertəhlükəsizlik Mərkəzində olub. Burada Azərbaycan Ordusunun arsenalında olan müasir silah sistemi və informasiya texnologiyaları vasitələrinin kibertəhlükəsizliyinin təmin edilməsi istiqamətində yerinə yetirilən fəaliyyətlər, həmçinin kibertəhdidlərə qarşı süni intellekt əsaslı kibermüdafiə vasitələri haqqında geniş məlumat verilib.

Daha sonra Hərbi Hava Qüvvələrinin Döyüşü İdarəetmə Mərkəzi ziyarət olunub. Nümayəndələrə müasir standartlara uyğun idarəetmə sistemləri ilə təchiz olunmuş mərkəzin strukturu, iş prinsipi və fəaliyyət istiqaməti ilə bağlı brifinq təqdim edilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Müasir Azərbaycan ordusunun banisi - Heydər Əliyev

(Əvvəli 1-ci səhifədə)



Hər bir xalqın böyük əksəriyyəti üçün daxili sabitlik və təhlükəsizlik həyati əhəmiyyət daşıyır. Lakin bu sabitliyi təmin etmək, ölkədə quruculuq proseslərinə, o cümlədən ordu quruculuğuna şərait yaratmaq yalnız əsaslandırılmış və düzgün dövlət siyasəti ilə mümkündür. Əbədiyaşar Komandan Heydər Əliyevin həmin dövrdə həyata keçirdiyi tədbirlər bu zərurətin real təzahürü idi. Onun siyasi fəaliyyəti göstərdi ki, mürəkkəb tarixi şəraitdə daxili hərbi-siyasi sabitliyin yaradılması böyük iradə, ardıcıllıq və təcrübə tələb edir və bu cür ağır vəzifələrin öhdəsindən yalnız Ümummilli Lider Heydər Əliyev kimi nüfuzlu və qətiyyətli dövlət xadimləri gələ bilərlər.

Dahi Lider Heydər Əliyev cəmiyyətdə ictimai-siyasi sabitliyin və birliyin yaradılmasına xüsusi önəm verən lider idi. O, Azərbaycana rəhbərliyə başladığı ilk gündən fəaliyyətinin əsas istiqamətini məhz bu məsələnin həllinə yönəltdi. Xalqın müxtəlif siyasi qütblərə parçalanmasını, vətəndaşların bir-birinə qarşı düşmən mövqeyində dayanmasını erməni təcavüzünə qarşı mübarizədə ciddi maneə hesab edir, daxili qarşıdurmalar aradan qaldırılmadan güclü ordu qurmağın və ölkəni etibarlı şəkildə müdafiə etməyin qeyri-mümkün olduğunu vurğulayırdı.

1993-cü ilin yayında Gəncə və Lənkəranda baş verən hadisələrin, 1994 və 1995-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısının alınması Heydər Əliyevin böyük dövlət rəhbəri olduğunu bir daha nümayiş etdirdi. Bu qərarlı addımlar ölkədə sabitliyin bərpasına, xalqın vahid məqsəd ətrafında daha sıx birləşməsinə və müdafiə sisteminin möhkəmlənməsinə şərait yaratdı. Onun fəaliyyəti bir daha göstərdi ki, ordu quruculuğu kimi strateji əhəmiyyətli bir məsələ ilk növbədə ümummilli həmrəylikdən və cəmiyyətin yekdil mövqeyindən asılıdır.

Dövlət quruculuğunun digər sahələri kimi, ordu quruculuğunda da Heydər Əliyevin şəxsi keyfiyyətləri həlledici rol oynadı. O, Bakıya dəvət olunduğu vaxt Azərbaycan Ordusu dərin böhran vəziyyətində idi. Orduda nə rəhbərlik sistemi mövcud idi, nə də quruculuqla bağlı aydın dövlət strategiyası; dövlət və ordu arasında ciddi uçurum yaranmışdı, ordu siyasi proseslərə qatılmış, bölünmələr baş vermiş, daxildə nizamsızlıq və qanunsuzluq hökm sürmüş, sovet ordusundan qalan hərbi əmlakın böyük hissəsi məhv edilmiş, çağırış prosesi nəzarətsiz qalmış, döyüş qabiliyyəti zəifləyərək lazımi tələblərə cavab verməmiş, vahid komandanlıq sistemi isə ümumiyyətlə, formalaşdırılmamışdı.

Bu çatışmazlıqların siyahısını daha da uzatmaq mümkün idi, lakin ən əsas məsələ ondan ibarət idi ki, cəmiyyətdə ordu quruculuğu ilə bağlı son dərəcə pessimist bir ovqat hökm sürürdü. Bu ümidsizlik isə ordunun inkişafına və onun mövcudluğuna birbaşa mənfi təsir göstərirdi. Ölkə daxilində dərinləşən qeyri-sabitlik də hərbi sahədə irəliyə doğru ciddi bir addım atıla biləcəyinə dair inamı xeyli zəiflədirdi.

Məhz belə bir mürəkkəb və təhlükəli şəraitdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xilaskarlıq missiyasını öz üzərinə götürdü. O, ölkəni tədricən böhrandan çıxarmağa başladı və qısa bir tarixi dövr ərzində Azərbaycanın hərbi təhlükəsizliyini təmin edə biləcək real gücün formalaşdırılmasına nail oldu.

Onun fəaliyyəti bir daha sübut etdi ki, ordu quruculuğuna rəhbərlik edən dövlət başçısı təşəbbüskar, ardıcıl, qətiyyətli, prinsipial və yorulmaz olmalıdır. Bu xüsusiyyətlərin uğurlu şəkildə uzlaşdırılması isə prosesin səmərəliliyini daha da artırır.

Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində Ulu Öndərin atdığı ilk addımlar Naxçıvan dövrünə təsadüf edir. O dövrdə muxtar respublikada fəaliyyət göstərməsi bir daha sübut etdi ki, məqsədyönlü və milli maraqları əsas alan siyasət hətta ən çətin tapşırıqları belə yerinə yetirməyə imkan verir. Dahi Lider Heydər Əliyev həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini təşkil etdi, həm də burada milli hərbi hissənin sağlam təməllər üzərində qurulmasına nail olaraq ölkənin digər siyasi qüvvələrinə də dövlətçilik nümunəsi göstərdi. Onun parlaq zəkası və bənzərsiz təşkilatçılıq bacarığı bu prosesin uğur qazanmasında əsas rol oynadı.

Əbədiyaşar Komandan Heydər Əliyev ordu quruculuğunun səmərəli olmasının əsas şərtlərindən birini xalqla birliyə arxalanmaqda görürdü. O, xalqın gücünün hər cür təzyiq və maneədən üstün olduğunu vurğulayır, fəaliyyətində də ən böyük dəstəyi məhz xalqın etimadında tapırdı. Ölkə həyatının ən ciddi məsələlərinin həllində həmişə xalqın birliyinə güvənir, mürəkkəb və həlledici anlarda isə insanları milli maraqlar naminə səfərbər etməyi bacarırdı.

Azərbaycanda ordu quruculuğunun yeni əsaslarla yenidən təşkili və qısa müddətdə müasir ordunun formalaşdırılmasının kökündə də Ümummilli Liderin bütün xalqı bu prosesə səfərbər etməsi dayanırdı. Ölkənin dərin siyasi böhrandan çıxarılması necə ki, adi halda inanılması çətin olan bir dönüş kimi görünürdüsə, ordunun dağılmaq təhlükəsindən qurtarılması da buna bənzər bir nailiyyət idi. Müdafiə sahəsində mövcud olan çoxsaylı və müxtəlif problemlər bəzən ən gözlənilməz addımlar atmağı tələb edirdi. Bununla belə, bütün bu çətinliklər mərhələ-mərhələ aradan qaldırıldı.

Əbədiyaşar Komandan Heydər Əliyev ordunun bərpasında da böyük bir dönüş yaratdı - Azərbaycan Ordusunu dağılmaqdan xilas etdi, qısa zaman ərzində güclü, nizamlı və təşkilatlanmış hərbi qüvvəyə çevirdi. O, ordu quruculuğuna yeni bir yanaşma gətirdi və bugünkü Azərbaycan Ordusunu ölkənin müstəqilliyinin ən mühüm dayaqlarından birinə çevirməyə nail oldu.

Nəticədə xalqın iradəsi, mübarizlik ruhu və dönməzliyi orduya da öz təsirini göstərdi. Şəxsi heyətin mənəvi durumunda ciddi yüksəliş baş verdi, orduda sağlam psixoloji mühit formalaşdı. Yeni ehtiyat bölmələri yaradılaraq cəbhə xəttinə göndərildi, döyüşçülərin və onların ailələrinin sosial təminatı sahəsində canlanma müşahidə olundu.

Ümumilikdə, Dahi Şəxsiyyət Heydər Əliyev ordu quruculuğu sahəsində cəmiyyətdə tamamilə yeni düşüncə mühiti yaratdı. İnsanların hərbi xidmətə baxışında müsbət dəyişikliklər meydana gəldi, əvvəlki dövrlərdə mövcud olan etimadsızlıq və ordunun ayrı-ayrı qruplarının fəaliyyətindən doğan narahatlıq aradan qalxdı. Ordu ilə xalqın ayrılmaz bir bütöv olduğu fikri cəmiyyətdə möhkəmləndi. Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə göstərdiyi misilsiz fəaliyyət nəticəsində cəmiyyətdə orduya etibar bərpa olundu; xalq ordunu özünün tərkib hissəsi kimi qəbul etdi və orduya qayğı ümummilli dəyərə çevrildi. Ordunun vahid komandanlıq altında birləşməsi isə xalqın iradəsini əks etdirərək, onu erməni təcavüzünə qarşı mübarizəyə səfərbər etdi.

Ordu quruculuğunda yeni mərhələnin başlanması Əbədiyaşar Komandan Heydər Əliyevin 2 noyabr 1993-cü ildə radio və televiziya vasitəsilə xalqa etdiyi müraciətlə gerçəkləşdi. Prezident seçilməsindən cəmi bir ay sonra səsləndirilmiş bu müraciət bir tərəfdən, sağlam ordu quruculuğunun əsas prinsiplərini və bu sahədə dövlətin qarşısında duran mühüm vəzifələri müəyyənləşdirən konseptual proqram kimi çıxış edirdi, digər tərəfdən isə onun xalqa ünvanladığı ciddi bir çağırış idi. Bu çağırış cəmiyyətin bütün təbəqələri tərəfindən böyük dəstək gördü və xalqın mövcud potensialı ordu quruculuğu istiqamətində səfərbər olundu. Dahi Şəxsiyyət Heydər Əliyev dövlətçilik təfəkkürünün genişliyi ilə xalqın gücünü bu mühüm sahəyə yönləndirməyə nail oldu.

Ulu Öndər ağsaqqallara, ziyalılara, mədəniyyət və incəsənət xadimlərinə, dini icma rəhbərlərinə və iş adamlarına müraciət edərək onları orduya daha yaxından dəstək göstərməyə çağırdı. Xalqın Ümummilli Lideri hərbi qulluqçuların döyüş ruhunun yüksəldilməsinə yardım etməyin, eyni zamanda orduda mövcud olan qanunsuzluqlara, xüsusilə də hərbi xidmətdən yayınma hallarına qarşı qəti mövqe sərgiləməyin vacibliyini vurğuladı. Dahi Şəxsiyyət həmçinin hərbi strukturlarda yayılmış neqativ hallarla mübarizənin gücləndirilməsini xüsusi qeyd edirdi.

Bu baxımdan Ümummilli Lider çağırış-səfərbərlik prosesinin düzgün və şəffaf şəkildə təşkil olunmasını olduqca mühüm sayırdı. Onun fikrincə, bu iş yalnız hərbi komissarlıqların və müvafiq qurumların deyil, bütün dövlət və hakimiyyət orqanlarının üzərinə düşən ciddi bir vəzifə idi.

İstər səfərbərlik sahəsində, istərsə də ümumilikdə ordu quruculuğunda mövcud çatışmazlıqların aradan qaldırılmasında kadrların düzgün hazırlanması, seçilməsi və yerləşdirilməsi Ulu Öndərin xüsusi əhəmiyyət verdiyi əsas məsələlərdən biri idi. Əbədiyaşar Komandan Heydər Əliyev dəfələrlə hərbi hissələrə səfərlər edərək oradakı xidmət şəraiti ilə yaxından tanış olur, əsgər və zabitlərin problemlərini öyrənir, onların qayğılarına həssaslıqla yanaşırdı. Peşəkar hazırlıqla yanaşı, mənəvi təmizlik, əqidə möhkəmliyi və vəzifəyə sədaqəti zabit heyətinin başlıca xüsusiyyətləri kimi qiymətləndirir, bu keyfiyyətlərin formalaşdırılmasını isə ordu quruculuğunun ən vacib istiqamətlərindən biri hesab edirdi.

Ordu quruculuğuna göstərilən diqqət atəşkəs əldə edildikdən sonra da gücləndi. Əksinə, Əbədiyaşar Komandan Heydər Əliyev sülh şəraitini hərbi quruculuğu daha da sürətləndirmək üçün əlverişli fürsət kimi dəyərləndirdi. Ulu Öndər qəti şəkildə vurğulayırdı ki, Azərbaycanda ordu quruculuğu müvəqqəti kampaniya xarakteri daşımamalıdır. Ordu dövlət müstəqilliyinin əsas rəmzlərindən biridir və buna görə də bu sahədə işlər fasiləsiz və ardıcıl aparılmalıdır.

Ordu quruculuğunun səmərəli şəkildə davam etdirilməsi məqsədilə Heydər Əliyev atəşkəs dövründə dövlətin uzunmüddətli strateji xəttini müəyyənləşdirdi, milli hərbi kadrların yetişdirilməsi üçün yüksək səviyyəli hərbi təhsil sistemi yaratdı. Ordunun maddi-texniki bazasının gücləndirilməsi və yenilənməsi isə xüsusi diqqət mərkəzində oldu.

Azərbaycan dövlətinə rəhbərlik edən Heydər Əliyevin fəaliyyətinin təhlili göstərir ki, respublikanın hərbi təhlükəsizliyinin möhkəmləndirilməsində ölkənin xarici siyasət kursu xüsusi rol oynayır. Məhz buna görə də xalqın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasının dağıdılması, ölkəyə qarşı həyata keçirilən hərbi təcavüzün qarşısının alınması və Azərbaycanın ədalətli mövqeyinin dünya səviyyəsində müdafiə olunması üçün Heydər Əliyev yeni xarici siyasət xətti formalaşdırdı. Əvvəlki illərlə müqayisədə bu diplomatiya xətti tamamilə xalqın və dövlətin maraqlarına uyğunlaşdırıldı, əsassız birtərəfli yanaşmalara son qoyuldu, regionda təsir gücünə malik böyük dövlətlərin maraqlarının uzlaşdırılmasına çalışıldı. Ermənistanın təcavüzkar siyasəti barədə ətraflı məlumatlar beynəlxalq tribunalardan dünya ictimaiyyətinə çatdırıldı. Bütün bunların nəticəsində aparıcı dövlətlərdə və nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyinə real və praktik dəstək göstərilməyə başlandı.

Azərbaycan Ordusunun faktiki səviyyəsi göstərir ki, ordu quruculuğu sahəsində Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasət tamamilə düzgün və məqsədəuyğundur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin siyasəti uğurla davam etdirir, nəticədə Azərbaycan Ordusu yalnız regionda deyil, eyni zamanda, dünyanın ən müasir orduları sırasında öz mövqeyini qoruyub saxlayır. Heç də təsadüfi deyil ki, Dahi Şəxsiyyət Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Ordusu indi dünya orduları arasında güclü mövqe tutur.

"Dövlət xalq üçündür" deyən Ümummilli Lider Heydər Əliyev hər zaman xalqının yanında olan, dövlətini qoruyan şəxsiyyətlərdən biri olub. Onun bu kimi üstünlüklərinə görə də xalq onu hər zaman dəstəkləyirdi.

Dahi Lider Heydər Əliyevin dərin məzmunlu fikirləri bir daha göstərir ki, güclü ordu yalnız hərbi qüdrətin deyil, həm də milli birliyin, dövlətçilik iradəsinin və azərbaycançılıq ideyasının təcəssümüdür. Müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmləndirilməsi və inkişafı uğrunda atılan hər bir addım dünya azərbaycanlılarının tarixi haqlarının təmin edilməsi naminə görülən bütün işlər ordumuzun etibarlı dayağı ilə daha da möhkəmlənir.

Bu müqəddəs məqsədləri daha da inkişaf etdirmək üçün biz müstəqil dövlətimizin ətrafında daha da sıx birləşməli, azərbaycançılıq məfkurəsini yaşadaraq onu gələcək nəsillərə ötürməliyik. Güclü dövlət, qüdrətli ordu və birliyə söykənən xalq Azərbaycanın sabahının ən möhkəm təminatıdır.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev və azərbaycançılıq ideologiyası

## Azərbaycançılıq ideologiyası müasir Azərbaycanın ideoloji sütunudur

Ulu Öndər Heydər Əliyevin banisi olduğu bu ideologiya, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən fəaliyyətində dövlətə hörmət, Vətənə məhəbbət prinsipinə söykənir.

Dövlətçilik və vətənpərvərlik ideyalarını özündə birləşdirən azərbaycançılıq, vahid və bölünməz Vətən, birlik və həmrəylik, dünyanı tanımaq və dünyaya öz milli "mən"i ilə tanınmaq deməkdir. Azərbaycançılıq, bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün xalqların həmrəylik və anlaşma içində birgə yaşayışının və multikultural ənənələrinin tarixi təcrübəsidir.

Məlumdur ki, hər bir dövlətin dünyanın siyasi səhnəsində uzunömürlü olması, ilk növbədə, onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasından birbaşa asılıdır. Bu baxımdan azərbaycançılıq ideyası əsrlər boyu Azərbaycan üçün də taleyüklü vəzifələrdən biri hesab edilib. Buna səbəb isə Azərbaycanın ta qədim zamandan burada yaşayan çoxsaylı xalqlar üçün ana Vətən rolunu oynamasıdır. Bu müstəvidə də Azərbaycan adı coğrafi məfhum kimi lap qədim zamanlardan ortaya çıxaraq, ölkəmizin bütün ərazilərini əhatə edib.

Hələ min illər əvvəl Azərbaycan faktoru bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilmişdi. XVI əsrdə qüdrətli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən Azərbaycan türkcəsinin dövlət dili elan edilməsi burada yaşayan xalqların Azərbaycan ətrafında daha sıx birləşməsində önəmli hadisəyə çevrildi.

XX əsrin əvvəlində isə bir müsəlman dövləti olaraq dünyaya ilk cümhuriyyəti, demokratik respublikanı bəxş etmiş Azərbaycan, sözügedən ideologiyanı daha da inkişaf etdirdi. Lakin sonralar, yəni sovetlər dönəmində vahid mərkəzdən idarə edilən siyasi ideologiya, 15 respublikanın milli "mən"inin inkişafına zərbə vurmaqla kifayətlənmir, "sovet xalqları" məfhumunu möhkəmləndirməkdə israrlı idi.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanın düşdüyü dərin böhranı təkcə Ermənistanın ölkəmizə hərbi təcavüzü, Qarabağdakı separatçı qüvvələrin özbaşınalığı ilə əlaqələndirmək sadəlövhlük olardı. Həmin dövrdə ölkədə milli-etnik münaqişə, ayrı-seçkilik tendensiyası cücərməkdə idi. Məhz bu olaylar həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini vacib bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi, Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölgüçülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə respublikamızda milli özünüdərk və milli-mədəni intibahın yüksəlişi başlamışdır. Azərbaycan ədəbiyyatında, musiqisində, kinosunda, təsviri sənətdə və digər sahələrdə xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsərlər yaranmışdır.



Müstəqilliyimizin ilk illərində də məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı. XX əsr ziyalılarının əsərlərində milli ideya kimi gündəmə gətirilən türkçülüyü daha da zənginləşdirmək yolu tutaraq, azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə salan Ulu Öndərin bu tarixi xidməti nəticəsində ümummilli ideya dünya azərbaycanlılarının ideologiyasına, milli birlik təliminə çevrildi. Bu baxımdan dünya şöhrətli siyasətçi Dahi şəxsiyyət Heydər Əliyevin azərbaycançılıq ideologiyasının təməlində məhz Azərbaycan dili dayanır. Çünki azərbaycançılıq ideologiyasını Azərbaycan dili olmadan təsəvvür etmək mümkün deyil. Təsadüfi deyil ki, Heydər Əliyev: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm", - deyirdi.

Bu istiqamətdə də Heydər Əliyev Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya strategiyasını formalaşdırdı. Ulu Öndər müstəqillik dövrünün siyasi konsepsiyasını formalaşdırarkən azərbaycançılığı milli dövlətçilik ideologiyası kimi sistemə saldı. Ümummilli Lider Heydər Əliyev çalışırdı ki, azərbaycançılıq ideologiyası öz təbii gücündə təzahür etsin və bunun üçün mədəni-mənəvi, ictimai-siyasi və ideoloji mühit formalaşsın. Odur ki, dilimizin, tariximizin, ədəbiyyat və mədəniyyətimizin azərbaycançılıq məfkurəsi ilə dərk olunması strategiyasını formalaşdıran Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan dilinin dövlət səviyyəsində qorunması ilə bağlı qanunvericilik bazası yaratdı. 2001-ci il avqustun 1-dən ölkəmizdə "Azərbaycan əlifbası və dili günü" kimi hər il qeyd edilməyə başlanıldı.

Ulu Öndər azərbaycançılıq fəlsəfəsini formalaşdırarkən Azərbaycan ədəbiyyatına sistemli şəkildə istinad edirdi. "Dədə Qorqud" eposunun 1300 illik yubileyini keçirən və genişmiqyaslı hərəkata bütün Azərbaycan ziyalılarını səfərbər edən Ulu Öndər Heydər Əliyev eposda ifadə olunmuş milli ideyaların nə qədər əsaslı, nə qədər perspektivli və səmimi olduğunu bütün ruhu ilə duyurdu və bütün bunları azərbaycançılıq ideallarının formalaşmasında güclü vasitə kimi görürdü.

### Azərbaycançılıq ideologiyası çağdaş istiqlal nəzəriyyəsidir

Ulu Öndər Heydər Əliyev azərbaycançılığın baza prinsipləri sırasında mədəniyyətin də inkişafına xüsusi önəm verirdi. Dahi şəxsiyyətin qənaətinə görə, əgər təhsil ideologiyanın təbliğidirsə, o zaman mədəniyyət təlqin vəzifəsini daşıyır. Ona görə də Ulu Öndər sənətin insan psixologiyasına təsir imkanlarından dövlət siyasətini həyata keçirərkən bacarıqla istifadə edirdi. Bununla da dünyaşöhrətli siyasətçi Heydər Əliyev azərbaycançılıq ideologiyasını formalaşdırarkən çoxəsrlik milli-mənəvi dəyərlərin qorunmasına və onların dövlət siyasətində ehtiva olunmasına ciddi diqqət yetirir, xalqı azərbaycançılıq fəlsəfəsinin təməlində dayanan ən mühüm amilə - milli-mənəvi dəyərlərin qorunmasına kökləyirdi.

Heydər Əliyev xalqın milli-mənəvi dəyərləri, millətin ruhu ilə bağlı sahələrdə azərbaycançılığın tətbiqi yollarını bacarıqla müəyyən edirdi. Məhz bu faktdan qaynaqlanaraq deyə bilərik ki, Ulu Öndərin azərbaycançılıq məfkurəsi xalqımızın qədim tarixini, onun mədəni dəyərlərini əks etdirir. Bu çərçivədə Heydər Əliyev xaricdəki həmvətənlərimizlə sistemli iş aparır, azərbaycançılığı diaspor hərəkatının aparıcı qüvvəsinə çevirirdi. Bu fəaliyyət mexanizmi isə möhkəm ideoloji istinad dayağına çevrilərək, Azərbaycan diasporunun təşkilini daha da sürətləndirdi; xaricdəki diaspor təşkilatları Azərbaycan dövlətindən aldıqları dəstək sayəsində tədricən mövcud olduqları ölkələrdə nüfuz qazanaraq ictimai-siyasi proseslərə qoşuldular.

Bununla da Heydər Əliyev azərbaycançılığı çağdaş dövlətçiliyə tətbiq etdi, azərbaycançılığa əsaslanan milli dövlət yaratdı. O, hər bir azərbaycanlıda dövlətçilik duyğusunu gücləndirdi, dövlətə hörmət hissini formalaşdırdı. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində azərbaycançılıq təkcə milli ideologiya yox, həm də çox qüvvətli dövlətçilik təlimi kimi nüfuz qazandı. Onun azərbaycançılıq nəzəriyyəsi sayəsində Azərbaycan dövləti çağdaş dünya inteqrasiyasında da beynəlxalq aləmdə diqqət mərkəzinə çevrildi və Ulu Öndər azərbaycançılığın ən böyük təbliğatçısı kimi tarixə düşdü.

### Azərbaycançılıq müasir dövrdə tarixi idealların təzahürüdür

Bu gün xalqımız məhz Heydər Əliyevin ardıcıl mübarizəsi ilə formalaşdırılan, elmi-nəzəri və praktik baxımdan komplektləşdirilən mükəmməl ideologiyaya malikdir. Azərbaycançılıq öz gücünü bütünlüklə qoruyub saxlamaqla yanaşı, inkişaf edir və müasirləşir. Prezident İlham Əliyev azərbaycançılığın inkişafı istiqamətində mükəmməl fəaliyyət nümayiş etdirir. Dövlət başçısı soydaşlarımızda vətənpərvərlik hisslərini gücləndirməklə yanaşı, xalqın tarixi ideallarının tam miqyasda reallaşması üçün mənəvi potensialı həyata keçirir və bu məsələdə azərbaycançılıqdan güclü baza kimi istifadə edir.

Dövlət başçısının fəaliyyətində azərbaycançılıq ideologiyası dövlətin iqtisadi təməlindən tutmuş daxili və xarici siyasət prinsiplərinə qədər hər bir sahədə özünü göstərir. Artıq bəhrəsini verən bu siyasət özünü 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbədə və uğurlu antiterror əməliyyatında təsdiqlədi. Azərbaycançılığın hakim kəsildiyi cəmiyyətimizin mərd, qəhrəman övladları Vətən uğrunda şücaət göstərərək xalqımızın nəyə qadir olduğunu bir daha sübut etdilər. Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları təmin olundu.

Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyasına verdiyi töhfələrdən biri də xalqımızda dövlət atributlarına hörmət hissini formalaşdırmaqdır. Dövlət başçısı milli dövlətçilik və müstəqillik rəmzlərinin qorunması, onların məna və mahiyyətinin təbliği ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirir. Bu gün dövlət atributlarımız, keçdiyimiz tarixi mərhələləri, milli ideologiyamızın əsas prinsiplərini və dövlətimizin getdiyi yolu tam mənası ilə əks etdirir. Üçrəngli bayrağımıza abidə ucaldan Prezident İlham Əliyev bununla nümayiş etdirir ki, Azərbaycanın min bir əziyyətlə qazandığı müstəqilliyi əbədi və dönməzdir, çünki onun güclü fəlsəfi bazası vardır.

### Azərbaycançılıq diaspor siyasətinin aparıcı qüvvəsidir

Bu gün də azərbaycançılıq xaricdə yaşayan soydaşlarımızla bağlı həyata keçirilən dövlət siyasətinin aparıcı qüvvəsi olaraq qalır. Prezident İlham Əliyev bu amildən həmvətənlərimizin birliyinin təmin olunmasında, onların vahid ideya ətrafında birləşdirilməsində uğurla istifadə edir. Dövlət başçısı, banisi Ulu Öndər Heydər Əliyev olan azərbaycançılıq ideologiyasından yararlanaraq, hər bir azərbaycanlıda dövlətə hörmət hissi formalaşdırır, soydaşlarımıza Vətəni sevmək nümunəsi göstərir.

Prezident İlham Əliyevin "Mən hər bir azərbaycanlının prezidenti olacağam" ifadəsi tarixi gerçəyə çevrilib. Bu amillər öz növbəsində Azərbaycan diasporunu xaricdə milli mənafe və dəyərlərimizin təmsilçisi kimi çıxış etməsinə geniş imkanlar açır. Soydaşlarımız Azərbaycan dövlətçiliyi ideyaları ətrafında sıx birləşir və ümummilli məsələlərdə sarsılmaz həmrəylik nümayiş etdirirlər. Dünya azərbaycanlılarının birliyi isə onların yaşadıqları ölkələrdə güclü və monolit bir qüvvə kimi çıxış etmələrinə, öz milli və vətəndaş haqlarını daha mükəmməl şəkildə qorumalarına əhəmiyyətli təsir göstərir. Təsadüfi deyil ki, dünyanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında, siyasi dairələrdə azərbaycanlıların təsirini getdikcə gücləndirməyə yönələn bu proses nəticəsində bu gün öz tarixinin məsul və şərəfli mərhələsini yaşayan dünya azərbaycanlıları vahid xalqı və tarixi Vətəni şərəflə təmsil edirlər.

Azərbaycanlılar dünyanın bütün ölkələrində milli mədəniyyətin, dilin, adət-ənənələrin layiqli davamçıları kimi çıxış edərək, bu dəyərlərin gənc nəslə ötürülməsini Vətən qarşısında müqəddəs borca çeviriblər.

Beləliklə, dövlətimizin qətiyyətli və uzaqgörən rəhbəri, Müzəffər Ali Baş Komandanı olan İlham Əliyev çalışır ki, harada yaşamasından asılı olmayaraq azərbaycanlılar, ilk növbədə, öz milli kimliyini dərk edib qorusun, Azərbaycanın dilini, mədəniyyətini, incəsənətini, mütərəqqi ənənələrini, tarixini, yaşatsın və inkişaf etdirsinlər. Dövlət başçısı vurğulayır ki, hər bir xalqın mövcudluğunun ideoloji-siyasi və mənəvi təməl prinsipi olan bu meyarlar hər zaman diqqətdə saxlanılmalıdır. Bu, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin təminatı baxımından bəlkə də ən mühüm şərtdir. Çünki zəngin irsi ilə dünyanın ən qədim etnoslarından biri kimi tanınan azərbaycanlılar haqqında dünyada obyektiv rəyin formalaşdırılması, məhz bu prinsiplərə riayət olunmasından keçir və təbii ki, bu prosesdə soydaşlarımızın qürur mənbəyi olan azərbaycançılıq ideologiyası daha da zənginləşir. O, zənginləşdikcə millətimiz də ucalır, Vətənə, xalqa məhəbbət, doğma torpağa sədaqət hissi hər bir soydaşımızın qəlbində əbədi ünvan salır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# "Heydər Əliyev irsində hərb tarixi" adlı elmi seminar keçirildi



Azərbaycan Hərb Tarixi Muzeyində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının iyirmi ikinci ildönümünə həsr olunmuş "Heydər Əliyev irsində hərb tarixi" adlı elmi seminar keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin hərbi qulluqçuları, Milli Müdafiə Universitetinin, Bakı Hərbi Kollecinin bir qrup zabit, müəllim, kursant heyəti və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə seminarda Ulu Öndər Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla dərin hörmətlə yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra elmi seminarı giriş sözü ilə açan Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov çıxış edərək, adı ötən yüzilliyin ən görkəmli dövlət xadimləri sırasında fəxrlə çəkilən Heydər Əliyevin həyat yolu və xalqımıza bəxş etdiyi zəngin irsinin hər bir azərbaycanlı üçün qürur mənbəyi olduğunu bildirdi. Dahi Rəhbərin 1970-80-ci illərdə Azərbaycanı keçmiş Sovetlər İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirdiyini vurğulayan muzey rəisi həmin dövrdə ölkəmizin əldə etdiyi uğurları statistik rəqəmlərlə diqqətə çatdırdı. Respublika gənclərinin hərbi vətənpərvərlik tərbiyəsinə önəm verən Ulu Öndər onların Azərbaycanda və keçmiş SSR-də yerləşən ali hərbi məktəblərdə təhsil almalarına şərait yaradılması üçün hər zaman çalışdığını dedi. "Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev azərbaycanlı gənclərin hərbi xidmətə marağının artırılması və onların ordu sıralarında ölkəmizi layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin paytaxt Bakımızda yaradılmasına nail olmuşdu. Bu gün Azərbaycan Ordusunda xidmət edən yüzlərlə zabit, neçə-neçə general hərbçi sənətinin əlifbasına bu məktəbdə yiyələnib. Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın ərazi iddiaları və silahlı təcavüzü ilə üzüzə qaldı. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunması,



ordu quruculuğu istiqamətində əsaslı dönüşə nail olunması, sürətli iqtisadi islahatlar aparılması, nəhəng qlobal layihələrin həyata keçirilməsi, Azərbaycanın nəqliyyat və digər sahələr üzrə beynəlxalq tərəfdaşlığının genişlənməsindəki xidmətləri misilsizdir. Bu inkişaf strategiyasının davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz üçün geniş imkanlar açan qlobal nəqliyyat və iqtisadi əməkdaşlıq layihələridir. Ulu Öndərin təməlini qoyduğu inkişaf strategiyası nəticəsində dövlətçilik tariximizin Zəfər salnaməsinə yeni səhifələr yazılmaqdadır".



Muzeyin tədqiqatçı-baş elmi işçisi tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov, İdarəetmə Akademik kursun dinləyicisi mayor Ceyhun Əliyev çıxışlarında müdrik və uzaqgörən dövlət xadiminin cəsarəti qərarları, yüksək dövlətçilik təfəkkürü və xalqına sonsuz sevgisi ilə bugünkü müasir, müstəqil Azərbaycanın əsasını qoyduğunu, Heydər Əliyevin rəhbərliyi ilə formalaşan milli ideologiyanın, azərbaycançılıq ideologiyasının dövlətçiliyin möhkəmlənməsi və ölkəmizin davamlı inkişafında həlledici rol oynadığını qeyd etdilər. Çıxış edənlər həmçinin Ümummilli Liderin Azərbaycan dilinin inkişafı istiqamətində gördüyü işlərdən danışdılar. Görkəmli tarixi şəxsiyyətin dil siyasətinin milli kimliyin qorunması, ədəbi dilin inkişafı və dövlət dilinin mövqeyinin möhkəmlənməsi baxımından böyük əhəmiyyət daşıdığını diqqətə çatdırdılar.

Eyni zamanda, çıxışlar zamanı bildirildi ki, 2003-cü il 12 dekabr tarixindən bizi ayıran 22 il Ümummilli Lider Heydər Əliyevin siyasətinin uğurla davam etdirilməsinə şahidlik edir. Vətənini, torpağını, xalqını canından artıq sevən, Azərbaycanı daim zirvələrdə görmək istəyən və buna nail olan Ulu Öndər elə möhkəm təməl yaratdı ki, onun üzərində Azərbaycan daha da möhtəşəm uğurlara, zəfərlərə imza atır. Bu gün Ümummilli Liderin ruhu şaddır. Vaxtilə onun ən böyük arzusu olan işğal altındakı torpaqlarımızın azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı və bu ərazilərdə yeni həyatın başlanması artıq reallığa çevrilib. Şəhidlərimizin qanı, canı bahasına əldə olunan Zəfərimiz, suverenliyimizin tam bərpası Azərbaycanın müstəqillik tarixini daha da zənginləşdirərək, uğur səhifələrinin sayının artmasını şərtləndirir. Ulu Öndər Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, "Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!

Daha sonra Ulu Öndər Heydər Əliyevin ömür yolundan bəhs edən sənədli film nümayiş olundu.

Elmi seminar çıxışlar ətrafında geniş fikir mübadiləsi ilə davam etdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Müdafiə Nazirliyinin hərbi mütəxəssisləri ilə NATO nümayəndələri görüşüb



Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2025-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı (IPCP) çərçivəsində Bakıda NATO-nun Brunssumda yerləşən Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupunun ekspertləri ilə nazirliyin mütəxəssisləri arasında "Tərəfdaş ölkələrin qabiliyyət uyarlılığı təşəbbüsü" təliminin II koordinasiya görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, general-mayor Vüqar Əliverdiyev Azərbaycan hərbçilərini NATO standartları ilə tanış etmək, onlara operativ planlaşdırma, komanda-idarəetmə prosedurları, NATO üslublu təlimlərin operativ və taktiki səviyyədə planlaşdırılması, o cümlədən icrası barədə biliklər vermək məqsədilə NATO-nun mobil təlim qrupunun təşəbbüsü ilə Azərbaycan-NATO arasında IPCP çərçivəsində mütəmadi olaraq təlim və kursların keçirildiyini bildirib.

Planlaşdırılan təlimin Azərbaycan-NATO əməkdaşlığının daha da dərinləşməsinə, Azərbaycan Ordusunun NATO standartlarına uyğun operativ hazırlıq səviyyəsinin artırılmasına, kollektiv təhlükəsizliyin möhkəmləndirilməsinə, həmçinin regionda sülhə və sabitliyə mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Azərbaycan Ordusunun hərbi qulluqçularının sülhməramlı missiyalarda, eləcə də NATO ilə tərəfdaşlıq çərçivəsində digər sahələrdə peşəkar fəaliyyətinin müsbət qiymətləndirildiyi qeyd olunub.

Görüşdə, həmçinin maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, təlimin keçirilməsi ilə bağlı qarşılıqlı anlaşma protokolu imzalanıb.

## Bakıda Azərbaycan və Türkiyə HDQ nümayəndələri arasında görüş keçirilib



Türkiyə Hərbi Dəniz Qüvvələrinin (HDQ) Naviqasiya Hidroqrafiya və Okeanoqrafiya İdarəsinin nümayəndə heyəti Azərbaycana səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan HDQ-nin qərargahında keçirilən görüş zamanı yeni nəsil elektron naviqasiya məlumatlarının hazırlanması, beynəlxalq standartların tətbiqi və təcrübə mübadiləsi ilə bağlı məsələlər müzakirə olunub.

Səfər proqramı çərçivəsində Türkiyə nümayəndə heyəti Azərbaycan HDQ-sinin Hidroqrafiya İdarəsinin mütəxəssisləri ilə hidroqrafik məlumatların toplanması və emalı, S-101 ENC xəritələrinin hazırlanması, eləcə də S-100 çərçivəsində rəqəmsal naviqasiya sistemlərinin inkişafı mövzularında fikir mübadiləsi aparıb, təcrübələrini bölüşüblər.



Tərəflər bu kimi görüşlərin Azərbaycan və Türkiyə arasındakı mövcud əməkdaşlığın daha da dərinləşdirilməsinə, iki ölkə arasında hidroqrafiya, naviqasiya və okeanoqrafiya sahələrində birgə fəaliyyət imkanlarının genişləndirilməsinə mühüm töhfə verdiyini qeyd ediblər.

# Azərbaycan Ordusunda Ulu Öndərin xatirəsi ehtiramla yad olunub

*Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, qoşun növləri, birlik, birləşmə və hərbi hissələrdə, Əlahiddə Ümumqoşun Orduda, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində ictimai-siyasi hazırlıq dərsləri, dəyirmi masalar, konfranslar təşkil olunub, Ulu Öndərin şərəfli həyat və fəaliyyətindən bəhs edən sənədli filmlər nümayiş etdirilib.

Şəxsi heyətin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə Ulu Öndərin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrlərin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Anım tədbirlərində Ulu Öndərin dəyərli ömür yolundan bəhs olunub, ölkəmizin hərbi, siyasi, iqtisadi, sosial, mədəni və digər sahələri üzrə gördüyü işlərdən danışılıb, əvəzsiz xidmətləri minnətdarlıq hissi ilə yad edilib.

Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə zəngin dövlətçilik təcrübəsi və müdrikliyi sayəsində Azərbaycanın sabit inkişaf yoluna qədəm qoyduğu, ordu quruculuğu prosesinin qanuni əsaslarla həyata keçirildiyi diqqətə çatdırılıb.

Tədbirlərdə çıxış edənlər bütün sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində də Ulu Öndərin siyasi xəttinin onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi vurğulayıblar.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivlərinin təqdim etdikləri ədəbi-bədii kompozisiyalar böyük maraq və alqışlarla qarşılanıb.

Silsilə tədbirlər zamanı, həmçinin şəxsi heyət üçün dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan muzeylərə ekskursiyalar təşkil olunub.

* * *

"Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram". Keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri Nikolay Baybakovun bu etirafı, böyük tarixi şəxsiyyətin azərbaycançılıq məfkurəsinə sədaqətinin, nəhayətsiz idrakının, zaman anlamında xalq, millət, dövlət və dövlətçilik düşüncələrinin sabahlarına inamının etirafıdır. Bu etiraf, dünyaya ürəyinin gözü ilə baxanlar üçün bəşəri mahiyyəti ifadə edir. Bu dərk gerçəkliyin fəlsəfi ifadəsidir.

Böyük tarixi şəxsiyyətlər tarixin axarını xalqının daha işıqlı sabahlarına yönəldə bilir - xalqa sevgisi ilə, dövlətə, dövlətçiliyə sədaqəti ilə, hüdudsuz təxəyyülü ilə... Azərbaycan dövlətçiliyinin bütün mərhələlərində belə tarixi şəxsiyyətlərimiz olub. XX əsrdə, dolaşıq siyasi münasibətlər zamanında Azərbaycanda belə bir tarixi şəxsiyyət Heydər Əliyev oldu. Heydər Əliyevin sabiq SSRİ dönəmində də, dövlət müstəqilliyi bərpa olunduqdan sonra da Azərbaycana müqayisəyəgəlməz xidmətləri tarixləşdi. Tarix bu xidmətləri əbədiyyən yaşadacaq.



Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən anım günündə Mərkəzin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov çıxışında ən böyük azərbaycanlının ömür yolundan, azərbaycançılıq məfkurəsinin dövlət səviyyəsində formalaşdırılmasından, müasir Azərbaycan dövlətçiliyini yaşatma qüdrətindən və s. danışdı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə, sovetlər dönəmində Azərbaycanın iqtisadi inkişafını təmin edəcək ittifaq miqyaslı sənaye müəssisələri yaradıldı. Bakı Məişət Kondisionerləri zavodu, Ozon zavodu, EHM zavodu, Radio-zavod... o dövrlərdə SSRİ miqyasında ən böyük və məhsuldar sənaye obyektləri idi. Minlərlə vətəndaş tam avtomatlaşmış bu müəssisələrdə işləyir, işləyə-işləyə ali təhsil alırdı. Bu da cəmiyyətin intellektual səviyyəsinin yüksəlişində vasitə idi.

Polkovnik Nizami Mövlanov, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasından, bu təşəbbüsün gerçəkləşməsinə göstərilən ittifaq miqyaslı təzyiqlərdən, Heydər Əliyev dühasının bu maneələrin qarşısını böyük siyasi iradə və güclü məntiqlə almasından da söz açaraq qeyd etdi ki, böyük tarixi şəxsiyyət azərbaycanlıların ali hərbi təhsil almasını da dövlət siyasəti prinsipləri ilə həll etdi. Hər il Azərbaycandan İttifaqın müxtəlif nüfuzlu ali hərbi məktəblərinə göndərilən gənclər bilavasitə gələcəkdə Azərbaycan üçün hərbçi kadr olacaqdı. O illərdə Bakıda fəaliyyət göstərən ali hərbi məktəblərə azərbaycanlı gənclərin daha çox qəbul edilməsinin tənzimlənməsi bilavasitə Heydər Əliyevin Azərbaycana xidmətlərindəndir. Bu kadrlar Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra, Azərbaycanın öz ordusu yaradıldıqdan sonra əvəzsiz kadr potensialına çevrildi.

Azərbaycanda ali məktəblər məhdud idi və deməli, ali təhsil almaq istəyənlər arzularına çətinliklə çatırdı. Böyük tarixi şəxsiyyət Heydər Əliyev, Moskvanın razılığı ilə hər il Azərbaycandan yüzlərlə gəncin İttifaqın ən nüfuzlu universitetlərində təhsil almalarını da təmin etdi, ali təhsilli gənc mütəxəssislərin bu və ya digər respublikada məqsədli aspiranturada təhsil almasını da. Bunun Azərbaycanda cəmiyyətin intellektual səviyyəsinin artmasında da müstəsna əhəmiyyəti oldu, elmin inkişafında da, Azərbaycanın və azərbaycanlıların tanınmasında da...

1970-ci ildə Bakı Dövlət Universitetinin 50 illiyi qeyd edilirdi. Azərbaycan KP MK-nın birinci katibi olan Heydər Əliyev bu mötəbər tədbirdə Azərbaycan dilində çıxış etdi. Bu, o dövr üçün böyük cəsarət idi. Bu çıxış Azərbaycanda da, Azərbaycandan kənarda da tarixi bir gerçəkliyin ifadəsi oldu: Heydər Əliyevin cəsarəti də xalqa sevgidən rişələnir, bu sevgi bütün sədləri dəf etməyə qadirdir!



Azərbaycanda milli-azadlıq hərəkatı genişləndi, Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı qəbul olundu. Lakin hakimiyyət boşluğu və səriştəsizlik dövlətçilik üçün böyük təhlükələr yaratmışdı. Onda xalq ciddi təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Azərbaycanı varlığı ilə böyük insan, ən böyük azərbaycanlı bu dəvəti qəbul etdi, Bakıya qayıtdı. Qısa müddətdə yaranmaqda olan milli qarşıdurmanın qarşısı alındı, bu və ya digər siyasi qruplara xidmət edən silahlı dəstələr ləğv olundu, yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı. Bu tədbirlər ordunun nizami ordu kimi formalaşmasının başlanğıcı oldu...

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərkərdəliyi ilə 1993-cü il dekabr ayının sonlarında keçirilən Horadiz əməliyyatı yanvarın 6-da başa çatdı. Əməliyyat Azərbaycan Ordusunun şəxsi heyətinə bir həqiqəti yaşatdı: Azərbaycan Ordusu qələbələr qazanmağa qadirdir. Bu əməliyyat ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəlişində mərhələ oldu. Əməliyyat nəticəsində Horadiz qəsəbəsi, Füzuli rayonunun 21 kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi Azərbaycanın nəzarətinə keçdi. 2016-cı ilin Aprel döyüşlərinin mənəvi başlanğıcı Horadiz əməliyyatı hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanla dünyanın iri dövlətləri arasında iqtisadi müqavilələr imzalandı ki, bunlar da gənc Azərbaycan dövlətinin iqtisadi inkişafında vasitə oldu...

Azərbaycanda ordu quruculuğu dinamik əsaslarla aparılırdı. Ordunu yüksək hərbi biliklərə malik zabit kadrları ilə komplektləşdirmək üçün Azərbaycanda Hərbi Akademiya yaradıldı. Bu, hərbi təhsilin konturlarını da müəyyənləşdirdi, istiqamətlərini də. Burada təhsil alan zabitlər qoşunlarda xidmətdə əsgər və zabitlərin ən müasir hərbi bilikləri mənimsəməsini təmin edirdi və nəticə etibarilə ordu həm nizami ordu kimi formalaşırdı, həm də onun döyüş hazırlığı yüksəlirdi...

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi irsi uğurla davam etdirilir. Hələ 1988-ci ildən başlayan ərazi iddiası, bu iddiaya görə başlayan işğalçılıq müharibəsi ərazilərimizin 20 faizinin işğalı ilə nəticələnmişdi. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində Ordumuz, Ali Baş Komandanın sərkərdəliyi ilə tarixi Zəfər qazandı. Bu Zəfər, böyük tarixi şəxsiyyət Heydər Əliyevin dövlətçilik siyasətinin qələbəsi oldu...

Tədbirdən sonra leytenant İltifat Mirzəli Ulu Öndərin ideyalarının gənc zabitlərin ömür və xidmət yolunun işığı olduğunu bildirdi: "Bu işıq bizi daha nurlu sabahlara aparır. Biz dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Biz də azərbaycançılığımızla fəxr edirik. Böyük tarixi şəxsiyyətə sevgimizin nəhayətsizliyi kimi bu günkü tədbirdə qürurumuz daha da yüksəldi..."

Böyük tarixi şəxsiyyətlərin ideyaları da xalqın sabahlarına düşən ideoloji işıqdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyaları belə ideyalardır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Türkiyə və Macarıstan arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq gücləndirilir



İstanbulda Türkiyənin və Macarıstanın aparıcı müdafiə sənayesi şirkətləri arasında imzalanan anlaşma sənədləri iki ölkənin bu sahədəki əlaqələrini daha da genişləndirir.

AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orbanın Türkiyəyə səfəri çərçivəsində iki ölkə arasında müdafiə sənayesi də daxil olmaqla, 16 anlaşma memorandumu imzalanıb. Bununla paralel olaraq, Macarıstanın "4iG" Kosmik və Müdafiə Texnologiyaları Şirkəti ilə Türkiyənin "ASELSAN" və "Nurol Makina" şirkətləri arasında iki müqavilə bağlanıb.

Müqavilələrə əsasən, "4iG" Kosmik və Müdafiə Texnologiyaları Şirkəti 2030-cu ilədək Macarıstan bazarında "Nurol Makina" tərəfindən istehsal olunan "Gidran 4x4" zirehli taktiki hərbi nəqliyyat vasitələrinin satışı ilə bağlı "yeganə distributorluq" hüququ əldə edir. Beləliklə, "4iG" Kosmik və Müdafiə Texnologiyaları Şirkəti bu zirehli vasitələri Macarıstan bazarındakı bütün potensial istifadəçilərə rəsmi şəkildə satmaq və tədarük etmək səlahiyyətinə malik yeganə şirkət olacaq. Bununla bağlı imzalanan müqavilə "Gidran" vasitələrinin tədarükü, təkmilləşdirilməsi və istehsalını əhatə edən, Macarıstan-Türkiyə müdafiə sənayesi əməkdaşlığının əsas sütunlarından birini təşkil edir.

Bu günə qədər Macarıstan Ordusuna və Müdafiə Nazirliyinə bağlı şirkətlərin mütəxəssislərinin iştirakı ilə dizaynı özəlləşdirilən və "Nurol Makina" tərəfindən Türkiyədə istehsal edilən 100-dən çox "Gidran" vasitəsi istifadəyə verilib. Gələn il isə 400-dən çox vasitənin Macarıstanda istehsalına başlanması hədəflənir. Bununla ölkədəki "Gidran 4x4" sayının 5 dəfə artacağı gözlənilir.

"4iG" Kosmik və Müdafiə Texnologiyaları Şirkəti ilə "ASELSAN" arasında imzalanan sənədlərə əsasən, gələcəkdə Macarıstanda uzaqdan idarəolunan silah sistemləri, İHA əleyhinə texnologiyalar və hava müdafiəsi sistemlərinin istehsalı üzrə texnoloji müəssisəsinin də qurulması nəzərdə tutulur. Bu müqavilələr çərçivəsində Macarıstan-Türkiyə iqtisadi və müdafiə sənayesi əməkdaşlığının gücləndirilməsi, Macarıstanda NATO standartlarına uyğun texnologiyaların təkmilləşdirilməsi və istehsalının dəstəklənməsi qarşıya məqsəd qoyulub.

*Sağlam bədəndə sağlam ruh olar*

## İdmançılarımızı tanıyaq

### *Əsgər Asim Əliyev*

***2018-ci ildə Bakıda keçirilən idmanın qaydasız döyüş növü üzrə yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə layiq görülüb.***



"Fiziki hazırlıq mənim üçün sadəcə güc toplamaq deyil, həm də tapşırıqları vaxtında və dəqiqliklə yerinə yetirə bilməkdir. Hər məşq yeni bir məqsədə yaxınlaşdırır".



### *Əsgər Elməddin Məmmədov*

***2019-cu ildə 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş ölkəmizdə keçirilən idmanın boks növü üzrə yarışda fəxri kürsünün ən yüksək pilləsinə layiq görülüb.***

"Döyüşə hazır olmaq üçün yalnız silah və texnika deyil, həm də bədənin gücü və çevikliyi vacibdir. Fiziki hazırlıq məşqləri hər gün daha da güclənməyimizə xidmət edir".

**"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar



### Prezident Ərdoğan: Terrorizm problemi Türkiyənin gündəmindən birdəfəlik çıxmalıdır

Terror təhlükəsinin qəti şəkildə aradan qaldırılması Türkiyənin inkişafına güclü təkan verəcək.

Bunu Prezident Rəcəb Tayyib Ərdoğan Ankarada TİSK həmkarlar ittifaqı təşkilatının 39-cu yığıncağında çıxışı zamanı bildirib.

Türkiyə lideri xatırladıb ki, onilliklər boyu aparılan terrorla mübarizə ölkəyə ümumilikdə 2 trilyon ABŞ dolları həcmində ziyan vurub.

Ərdoğanın sözlərinə görə, hökumət "Terrorizmsiz Türkiyə" təşəbbüsünə maksimum konstruktiv yanaşma nümayiş etdirir: "Bu gün biz geniş siyasi və ictimai konsensusun formalaşdırılmasına çalışırıq. İstəyirik ki, terrorizm problemi Türkiyənin gündəmindən birdəfəlik çıxsın".

Dövlət başçısı parlamentin milli həmrəylik, qardaşlıq və demokratiya komissiyasının fəaliyyətinin əhəmiyyətini vurğulayaraq bildirib ki, komissiyanın hesabatı terrorizm probleminin aradan qaldırılması ilə bağlı ümumi baxışın formalaşmasına yol açacaq.

Prezident "xırda ambisiyalara uymamağa" çağırış edib. "Qarşıya qoyulan hədəfdən geri çəkilmək olmaz", - deyə Prezident vurğulayıb və bu məsələdə qətiyyətli mövqe nümayiş etdirməyə dəvət edib.

### Estoniya 2027-ci ildən hərbi xidmət müddətini 12 ayadək uzatmağı planlaşdırır



Estoniya hökuməti 2027-ci ildən başlayaraq bütün çağırışçılar üçün hərbi xidmət müddətini 12 ayadək uzatmaq niyyətindədir.

ERR dövlət televiziyası bu barədə Estoniyanın müdafiə naziri Hanno Pevkurun təklif etdiyi qanun layihəsinə istinadla məlumat yayıb. Sənəddə deyilir ki, ixtisasından asılı olaraq 8 və ya 11 ay xidmət tələb edən mövcud təlim sistemi artıq müasir tələblərə cavab vermir. Belə ki, təlimin həcmi və texniki mürəkkəbliyi artıb, müasir silahlar və idarəetmə sistemləri daxil edilib.

Qeyd edək ki, hazırda Estoniyada ilin əvvəlində və ya yayda başlayan xidmət müddəti 11 ay, payız çağırışçıları üçün isə 8 aydır.



### Kamboca ilə münaqişədə həlak olan tailandlı hərbçilərin sayı 9 nəfərə çatıb

Kamboca ilə sərhəddə baş verən döyüşlər nəticəsində Tailand hərbçiləri arasında ölənlərin sayı 9 nəfərə çatıb, 120 nəfər isə yaralanıb.

Sinxua agentliyi bu barədə Tailandın Müdafiə Nazirliyinə istinadla məlumat yayıb. Məlumata görə, toqquşmalar səbəbindən təxminən 200 min tailandlı evlərini tərk etmək məcburiyyətində qalıb, üç mülki şəxs isə ölüb.

Xatırladaq ki, dekabrın 7-də Tailand-Kamboca sərhədində silahlı toqquşmalar başlayıb. Dekabrın 9-da Tailand Hərbi Hava Qüvvələrinə məxsus F-16 qırıcıları Oddar-Miençey əyalətinin inzibati mərkəzi Samrounq şəhərini bombalayıb. Hava hücumları nəticəsində yaşayış binalarına və infrastruktur obyektlərinə ciddi zərər dəyib. Kamboca ordusu isə döyüşlər zamanı Tailand ərazisinə BM-21 raketləri atıb və kamikadze dronlarından istifadə edib.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman

### Dünya çempionatı: Azərbaycanın bir boksçusu finalda, ikisi bürünc medal qazanıb



Azərbaycan boksçusu Sübhan Mamedov Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən dünya çempionatında finala vəsiqə qazanıb.

48 kiloqram çəki dərəcəsində çıxış edən idmançı yarımfinalda gürcüstanlı Sahil Alahverdoviyə qalib gəlib.

Digər boksçularımız Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) isə finala gedən yolda məğlub olaraq, bürünc medalla kifayətləniblər.



### Avropa çempionatında daha dörd boksçumuz qalib gəlib

Almaniyanın Keinbaum şəhərində yeniyetmə boksçular arasında U-17 Avropa çempionatı davam edir.

Yarışın ikinci günündə Azərbaycan millisinin daha 4 idmançısı qələbə qazanıb.

Qardaş Rəhimov (46 kq) 1/8 finalda Hasan Pehlivan Uçaqla (Türkiyə) qarşılaşıb. Döyüş boksçumuzun 5:0 (30:27, 30:27, 29:28, 30:27, 30:27) hesabı ilə xeyrinə bitib. Q.Rəhimov növbəti görüşdə Misteak Rama (Albaniya) ilə üz-üzə gələcək.

Əli Əliyev (48 kq) startda Noa Sançesi (Fransa) mübarizədən kənarlaşdırıb - 5:0 (30:27, 29:28, 29:28, 30:27, 30:27). O, 1/4 finalda İonut Madalin Çaluğarla (Rumıniya) gücünü yoxlayacaq.

Şükar Əliyev (75 kq) də komanda yoldaşlarının uğurunu təkrarlayıb. Boksçumuz Valentin Zefini (Albaniya) 5:0 (30:27, 30:26, 29:27, 30:26, 30:26) hesabı ilə məğlub edib. Ş.Əliyev 1/4 finalda Yannik Müllerlə (Almaniya) münasibətlərə aydınlıq gətirəcək.

İsmayıl Vəliyev (80 kq) isə 1/8 finalda Elvir-Aqustin Dinuya (Rumıniya) qalib gəlib. Təmsilçimiz rəqibini 5:0 (30:27, 29:25, 30:27, 29:28, 30:27) hesabı ilə məğlub edib. O, növbəti qarşılaşmada Luis Köberi (Almaniya) sınağa çəkəcək.

### Səudiyyə Ərəbistanı klubu Məhəmməd Salaha illik 120 milyon funt sterlinq məvacib təklif edib



Səudiyyə Ərəbistanının adı açıqlanmayan klubu Misir millisi və "Liverpul"un futbolçusu Məhəmməd Salahı transfer etmək istəyir.

33 yaşlı hücumçuya həftəlik 2,5 milyon, illik isə 120 milyon funt sterlinq məvacib təklif edilib.

Təcrübəli forvard "Liverpul" rəhbərliyi və baş məşqçi Arne Slotla fikir ayrılığına görə əsas komandadan kənarlaşdırılıb.

Qeyd edək ki, Məhəmməd Salah 2017-ci ilin yayından "Liverpul"da çıxış edir. O, Mersisayd klubunun heyətində İngiltərə Premyer Liqasının, Çempionlar Liqasının, ölkə kubokunun, klublararası dünya çempionatının qalibi olub.

Cari mövsümdə misirli hücumçu klub səviyyəsində 19 oyun keçirib, 5 qol vurub və 3 məhsuldar ötürmə edib.

**AZƏRTAC-ın materialları əsasında**

Məmmədov Kənan Ayaz oğluna verilmiş MV № 113175 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV

Lisenziya № 361
Sifariş № 827
Nüsxə 3665